**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS

**“Büdcə sistemi “**
***( 5 kredit (AKTS))***

***Müəllim haqqında məlumat***

***Müəllim: Mühazirə - Məmmədova Aynur Rəhim qızı***
***Müəllim:Seminar - Məmmədova Aynur Rəhim qızı***
**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 125
**İş nömrəsi:**
**Mob** 055 906 06 99
**İş saatları: 8 00 – 16 00**
**E-mail:** m.arzu74@bk.ru
**Yaz semestri : 2022**

**GƏNCƏ- 2022**

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxumalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənlə əlaqəli informasiyalarla tanış ola bilərlər.

Koronovirus pandemiyası səbəbindən bütün dərslər praktik olaraq onlayn Microsoft Teams platforması vasitəsi ilə keçiriləcəkdir.

## *Kurs cədvəli*

## *Fənnin təsviri*

Ölkəmizin iqtisadi sisteminin inkişaf etdirilməsinin əsas şərtlərindən biri dövlətin təşkilatçılıq rolunun gücləndirilməsidir ki, bu da başlıca olaraq dövlətin mərkəzləşdirilmiş pul vəsaiti fondu olan büdcə vəsaiti ilə həyata keçirilə bilər. Respublikanın ayrı – ayrı regionlarında məhsuldar qüvvələrin hərtərəfli inkişaf etdirilməsi və yerli özünü idarəetmə orqanı ilə birlikdə kiçik və orta sahibkarlığın inkişafına maliyyə yardımı göstərilməsi üçün dövlət büdcəsi xüsusi rol oynayır.

Bu baxımdan Azərbaycanda dövlət maliyyəsinin, o cümlədən büdcə sisteminin nəzəri problemləri və praktiki məsələləri əsaslı surətdə tədqiq olunmalı və büdcə quruculuğu məsələləri hərtərəfli işıqlandırılmalıdır.

Azərbaycan Respublikasının büdcə sistemi və büdcə prosesinin əsasları Azərbaycan Respublikasının Konstitusiyası , “ Vergi məcəlləsi ”, “ Büdcə sistemi haqqında ” Azərbaycan Respublikasının qanunu və digər qanunvericilik aktları ilə tənzimlənir.

Milli iqtisadiyyatın inkişafında, istehsalın stimullaşdırılmasında, eləcə də cəmiyyətin sosial tərəqqisində dövlət büdcəsi çox böyük rol oynayır. Büdcə vasitəsilə dövlət və bələdiyyə orqanları öz üzərinə düşən vəzifə və funksiyaları yerinə yetirir. Ona görə də, “ Maliyyə ” ixtisası alan mütəxəssislər "Büdcə sistemi" fənninə daxil edilən mövzuları əhatəli öyrənməli və büdcə münasibətlərinin təşkili qaydalarını daha yaxşı bilməlidirlər.

“ Büdcə sistemi ” fənninin başlanğıc hissəsində büdcənin iqtisadi mahiyyəti və rolu, Büdcə quruculuğu və büdcə sistemi, büdcələrarası münasibətlər və büdcələrin tənzimlənməsi, dövlət hakimiyyəti və yerli özünüidarətmə orqanlarının büdcə hüquqları, Azərbaycan Respublikasında büdcə prosesinin təşkili qaydalarının öyrənilməsi nəzərdə tutulmuşdur.

Fənnin sonrakı mərhələsində büdcə təsnifatı və onun əhəmiyyəti, büdcənin gəlirləri, vergi və qeyri-vergi gəlirləri, büdcədən maliyyələşən idarə, müəssisə və təşkilatların xərclərinin planlaşdırılması və maliyyələşdirilməsinin əsasları , maddi və qeyri-maddi istehsal sahələrinin xərclərinin maliyyələşdirilməsinin öyrənilməsi tələb olunur.

“ Büdcə sistemi ” fənnində həm də təhsil xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi, səhiyyə xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi, sosial müdafiə, sosial sığorta və sosial təminat xərclərinin maliyyələşdirilməsi, ümumdövlət xidmətlərinin, qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının və digər dövlət orqanlarının saxlanmasına büdcə xərclərinin öyrənilməsi nəzərdə tutulmuşdur.

Bundan başqa dövlət borclarına xidmət edilməsinə büdcə xərcləri, dövlət büdcədənkənar fondları və məqsədli büdcə fondları, büdcələrarası münasibətlər, büdcənin icrasının təşkili və büdcə icrası üzərində maliyyə nəzarətinin təşkilinin öyrənilməsi də vacib məsələdir.

### *Planlaşdırlan təlim nəticələri*

Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:
“ Büdcə sistemi ” fənninin əsas məqsədi büdcə münasibətlərinin təşkili qaydalarını əsaslı öyrənməkdir. Bu baxımdan fənnin məqsədi aşağıda qeyd olunan konkret büdcə məsələlərini öyrətməkdir:

- büdcənin sosial – iqtisadi mahiyyəti və funksiyaları;
- büdcə quruculuğu və büdcə sistemi;
- Azərbaycan Respublikasının dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının büdcə hüquqları;
- Azərbaycan Respublikasında büdcə prosesinin təşkili əsasları;
- büdcə təsnifatı və onun əhəmiyyəti;
- büdcənin gəlirləri, vergi və vergi gəlirləri;
- büdcədən maliyyələşən idarə, müəssisə və təşkilatların xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi;
- maddi və qeyri – maddi istehsal xərclərinin maliyyələşdirilməsi;
- təhsil xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi;
- səhiyyə xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi;
- sosial müdafiə, sosial sığorta və sosial təminat xərcləri;
- ümumdövlət xidmətlərinə, qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının, müdafiə, hüquq mühafizə, məhkəmə orqanlarının saxlanmasına büdcə xərcləri;
- dövlət borclarına xidmət edilməsinə büdcə xərcləri;
- dövlət büdcədənkənar fondları və məqsədli büdcə fondları;
- büdcələrarası münasibətlər, gəlirlərin və xərclərin büdcələr arasında bölgüsü;
- büdcənin icrasının təşkili;
- büdcə icrası üzərində maliyyə nəzarətinin təşkili.

*Fənn üçün 60 saat (5 kredit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır. Hər həftədə 2 saat mühazirə və hər həftə 2 saatlıq seminar var.*

***Fənnin tematik təqvimi***

| S/s | Mövzuların adı | Cəmi saat | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Müh-azirə | Məş-ğələ |
| 1. | Büdcənin sosial-iqtisadi mahiyyəti və funksiyaları. | 4 | 2 | 2 |
| 2. | Büdcə quruculuğu və büdcə sistemi | 4 | 2 | 2 |
| 3. | Azərbaycan Respublikasının dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının büdcə hüquqları | 4 | 2 | 2 |
| 4. | Azərbaycan Respublikasında büdcə prosesinin təşkili əsasları. | 4 | 2 | 2 |
| 5. | Büdcə təsnifatı və onun əhəmiyyəti. | 4 | 2 | 2 |
| 6. | Büdcənin gəlirləri: vergi və qeyri-vergili gəlirləri. | 4 | 2 | 2 |
| 7. | Büdcədən maliyyələşən idarə, müəssisə və təşkilatların xərclərinin planlaşdırılması və maliyyələşdirilməsinin əsasları. | 4 | 2 | 2 |
| 8. | Maddi və qeyri-maddi istehsal sahələrinin xərclərinin maliyyələşdirilməsi. | 4 | 2 | 2 |
| 9. | Təhsil xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi. | 4 | 2 | 2 |
| 10. | Səhiyyə xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi. | 4 | 2 | 2 |
| 11. | Sosial müdafiə, sosial sığorta və sosial təminat xərcləri. | 2 | 2 | 2 |
| 12. | Ümumdövlət xidmətlərinə, qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının, müdafiə, hüquq-mühafizə, məhkəmə orqanlarının saxlanmasına büdcə xərcləri. | 2 | 2 | 2 |
| 13. | Dövlət borclarına xidmət edilməsinə büdcə xərcləri. | 4 | 2 | 2 |
| 14. | Dövlət büdcədənkənar fondları və məqsədli büdcə fondları. | 4 | 2 | 2 |
| 15. | Büdcələr arası münasibətlər: gəlirlərin və xərclərin büdcələr arasında bölgüsü. | 4 | 2 | 2 |
| **Cəmi:** | | **60** | **30** | **30** |

***Mühazirənin quruluşu***

Mühazirə müddəti 80 dəqiqə onlayn olaraq planlaşdırılır. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər.
Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzu Microsoft Teams vasitəsilə hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 25% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

## *Seminar*

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test sualları da təqdim olunur. Tələbələr hər dərsdə sual cavabda aktiv iştirak etməli, mövzunu sərbəst, aydın, ardıcıl danışmağı bacarmalıdır.

***Tələbələr üçün tövsiyyələr:****Tələbələr auditoriyada fəal iştirak etməyə, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

## *Sərbəst işlər*

Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Əks təqdirdə, tapşırıq qəbul edilmir və ümumi baldan çıxılır. Fərdi tapşırıqların gec təqdim edilməsi qəbul edilmir və qiymətləndirilmir. Bununla birlikdə, növbəti ayın balları hesablanarkən, yuxarıdakı şərtlər daxilində fərdi tapşırıqlar yenidən təqdim edilə bilər.
Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin müəyyənləşdirdiyi digər formada aparıla bilər.

## *İmtahan*

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılan Apelyasiya Komissiyası

şikayət edə bilərsiniz. Apelyasiya Komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

## *Qiymətləndirmə*

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

## *Tövsiyə olunan ədəbiyyat*

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı.
2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı.
3. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanunu.2002.(Dəyişikliklər və əlavələrlə birlikdə)
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. (Dəyişikliklər və əlavələrlə birlikdə)
5. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi (Dəyişikliklər və əlavələrlə birlikdə)
6. Dövlət rüsumu haqqında Azərbaycan Respublikasının Qanunu. (Dəyişikliklər və əlavələrlə birlikdə) Bakı, Qanun nəşriyyatı..
7. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu (Dəyişikliklər və əlavələrlə birlikdə) Bakı, Qanun.
8. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanunu.
9. “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanunu.
10. “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikasının Qanunu.
11. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu.
12. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu.1999.
13. Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanunu.1999.
14. “Dövlət büdcəsinin tərtibi və icrası qaydaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 may 2004-cü il tarixli Qərarı (Dəyişikliklər və əlavələrlə birlikdə)
15. Büdcə sistemi. Novruzov Nurpaşa,İbrahimov Elşən. Bakı-2012
16. B.A.Xankişiyev Büdcə prosesi və büdcə təsnifatı. Bakı 2002.
17. B.A.Xankişiyev Maliyyə nəzarəti. Dərs vəsaiti. Bakı 2002.
18. N.A.Novruzov, X.Ə.Hüseynov Maliyyə. Dərslik. Bakı 2007.
19. Z.Fərrux, V.Zeynalov Maliyyə, pul tədavülü, kredit. Dərslik. Bakı 2007.
20. M.M.Sadıqov, A.Hüseynov, V.Zeynalov Korporativ maliyyə. Dərslik. Bakı 2007.
21. M.M.Sadıqov Maliyyə potensialı: formalaşma və aqrar sahənin prioritetliyi. Bakı 2009.
22. M.M.Sadıqov, S.M.Məmmədov Maliyyə. Dərslik. Gəncə.2010.

## ***Əlavə resurslar***

1. Strateji yol xəritəsi